**Oljas Süleymenov**

Planetar düşüncənin milli dəyərlər əsasında formalaşdığını, rəngarəng milliliklərinsə insanların düşüncə tərzlərini daha da zənginləşdirəcəyini söyləyən Oljas Süleymenov çağdaş türk dünyasının tanınçış şəxsiyyəti, qazax xalqının mərd oğlu, şöhrətli şair, görkəmli publisist alim, türk xalqları tarixinin tədqiqatçısı kimi çox dəyərli əsərlərin müəllifidir. Oljas Süleymenov təxminən yarım əsrdən bəridir türk dünyası poeziyasına, tarixinə və ədəbiyyatına təmənnasız xidmət göstərir, sözdə deyil, əməldə xalqların, ilk əvvəl də mədəniyyətlərini dərindən bildiyi türk və slavyan xalqlarının daha çox yaxınlaşması üçün çalışır.

Oljas Süleymenovun əsərləri 1959-cu ildən işıq üzü görür. O.Süleymenov "Torpaq, insana təzimet" (1961) poemasının, "Yel qanadlı atlar" (1967), "Nurlu gecələr" (1962), "Gün doöanda" (1964), "Meymun ili" (1967), "Gil kitab" (1969), "Dəyirmi ulduz" (1975) və s. şeir kitablarının müəllifidir. 1975-ci ildə onun sonralar böyük qalmaqallar yaradacaq "Az-Ya" kitabı nəşr edilmişdi. Oljas Süleymenovun çoxillik tarixi-linqvistik araşdırmalarının məhsulu olan, 1975-ci ildə nəşr ediləndən sonra nəinki təkcə keçmiş SSRİ-də, ümumən bütün dünyada ciddi rezonans doğuraraq sovet bestselleri adlandırılan "Az-Ya" türk xalqlarının tarixinə, dilinə, mədəniyyətinə tamamilə yeni və orijinal yanaşma kimi böyük marağa səbəb oldu. İki hissədən ibarət olan əsərin birinci bölümü qədim rus ədəbiyyatının böyük abidəsi "İqor polku haqqında dastan"a həsr edilmişdir. Müəllif burada dastandakı türk mənşəli sözlərin - sonradan slavyan mənşəli hesab edilən türkizmlərin etimologiyasını araşdırır, onları türk-slavyan əlaqələri kontekstindən şərh edir. "Az-Ya"nın "Şumernamə" adlı ikinci fəslində isə şumer-türk əlaqələrinin bütün qatları tarixilik, linqvistika, etimologiya və mifologiya baxımından araşdırılır. Elmi dairələrdə bir vaxtlar az qala süngü ilə qarşılansa da sonradan bəraət alan və rəğbətlə qarşılanan bu kitab tarixçilər, dilçilər, türkoloq və slavistlər üçün hələ də qiymətli mənbə olaraq qalır.